# PETERBURQU SİRKƏLƏYƏN XANIM

## *(Azər Turanın "Qəbulə xanım və I Pyotr" kitabı haqqında)*

*Qızılı udsa da qara torpaqlar,*
*Yenə öz dəyərin özündə saxlar.*

**Səməd Vurğun.**

Azərbaycanın, eləcə də Türk dünyasının ədəbi və tarixi mənbələrinin yorulmaz tədqiqatçısı, "Ədəbiyyat qəzeti"nin Baş redaktoru, filologiya elmləri namizədi Azər Turanın bu yaxınlarda "Elm və Təhsil" nəşriyyatı tərəfindən buraxılmış, misilsiz dəyərə malik "Qəbulə xanım və I Pyotr" kitabını oxudum və dərhal işğalçı rus imperatorunun bu sayıqlamalarını xatırladım: 1724-cü ildə Pyotr son dərəcə açıq şəkildə general-mayor Matyuşkinə yazırdı: "Ermənilləri və digər xaçpərəstləri dirçəltmək, çağırıb gətirmək üçün hər vəchlə çalışmalı, basurmanları (müsəlmanları - H.T.) ehmalca, heç kəsi duyuq salmadan seyrəldib azaltmalı." (525-ci qəzet, 3.10.20, səh.10)

Tarixdən məlumdur ki, I Pyotr 1722-1723-cü illərdə artıq Xəzərin qərb və cənub sahillərini (Dərbənd, Bakı...) işğal etmişdi. Azər Turan göstərilən kitabda Azərbaycan tarixində baş vermiş və qəsdən "unudulmuş" bir hadisəni qələmə almış, Salyanın Azərbaycanda işğalçı rus hərbçilərinin qanının axıdıldığı ilk torpaq olduğunu, çox dəyərli faktlarla aşkar etmişdir. Salyanlı Qəbulə xanımın rus imperatoru I Pyotra verdiyi dərsdən üç əsrlik bir zaman keçdiyini, bu tarixi, bənzərinə rast gəlinməyən nadir hadisəni bizə, müasirlərinə çatdırmaq, faktlarla təqdim etmək hörmətli Azər Turana nəsib olmuşdur. Müəllif "Qəbulə xanım və I Pyotr" kitabında yazır ki, Qəbulə xanımın Salyanda Rusiyanın işğalçı siyasətinə qarşı hərəkatın ilk lideri olaraq, antirus dalğasını hərəkətə gətirib. Müəllif baş vermiş hadisə ilə əlaqədar məhdud sayda olan mənbələri araşdırmış, o cümlədən Rusiya Xarici Siyasət Arxivində Bakı komendantı Baryatinskiyə keçmiş Salyan xanının arvadı Qəbulə xanım tərəfindən yazılmış məktublarını aşkar etmişdir. Bu mərd qadın Salyana rus hərbi birləşməsinin yerləşdirilməsinə (1719-cu ildə baş vermiş xalq kütlələrinin hərəkatına qarşı) etiraz etmiş, eyni zamanda imperatorun nəzərinə Salyanın onun dədə-baba torpaqları olduğunu da çatdırmışdı. Bu əsəri Azərbaycan tarixinə işıq salan, onun qəsdən itirilmiş, "unudulmuş" bir səhifəsini aşkar edən dəyərli mənbə adlandırmaq olar. Müəllifin aşkar etdiyi faktları həm orijinalda, həm də tərcüməsilə verməsi diqqətəlayiqdir. 1724-cü ilin sentyabrında bir günün ərzində Salyanda işğalçı rus ordusunun bütöv bir batalyonunu məhv edən Qəbulənin bu addımını müəllif belə dəyərləndirmişdir: "Bu təkcə Salyanın tarixində deyil, ümumazərbaycan tarixində sonrakı dövrlərdə də bənzərinə rast gəlinməyən nadir hadisə idi." (Bakıdan Salyana podpolkovnik Zambulatovun başçılığı ilə hərbi heyət göndərilmişdi. Nəticə isə məlumdur.) Burada XIX əsr Azərbaycan Qacarlar dövləti tarixində baş vermiş bir hadisəni xatırlamaq yerinə düşərdi: Azərbaycan valisi Abbas Mirzə Naibüssəltənənin 3-cü oğlu, xüsusi təhsil görmüş şahzadə Cahangir Mirzə Rusiyanın Qafqazdakı işğalçı siyasətinə qarşı mübarizə aparan atasını, vəliəhd Abbas Mirzə Qacarı onun ömrünün sonunadək tərk etməmiş, ruslara qarşı hərbi yürüşlərdə iştirak etmiş, bu yürüşləri qələmə alaraq, özünün "Tarixe nou" (Yeni tarix) adlı xatirə kitabını yazmışdır. Cahangir Mirzə II Rusiya-Qacar müharibəsi (1826-1828) zamanı, 1827-ci ildə Salyanda yerləşdirilmiş rus qarnizonunu zərərsizləşdirmək qərarına gələn Abbas Mirzənin 17 yaşlı ordu komandiri idi. Döyüşdə Cahangir Mirzə rusların qarnizonunu əsir alaraq onların toplarını dənizə tökmüşdü. Salyan xanlığını bir müddət Cahangir Mirzə idarə etmişdir. (Tarixi-ricali-İran, Cild 1, s. 285) "Qəbulə xanım və I Pyotr" əsərində Azərbaycan Sovet tarixşünaslığının bəzi səhv müddəaları da diqqətə çatdırılır. İdeologiya belə idi: "Azərbaycana rus gəlir. Türk və İran zülmü bitir".




Qəbulə xanım isə Rusiyanın Azərbaycana münasibətinə fəhmlə yanaşdı, müstəqil hərəkət etdi, Rus işğalına etirazını öz əməli ilə bildirdi. Müəllifin qeyd etdiyi kimi, Qəbulə barədə hələ özünün "Darülmöminin" kitabında yazmışdır. Belə ki, 2012-ci ildə nəşr etdirdiyi, heyranlıqla oxuduğum "Darülmöminin" əsərində, bu möhtəşəm, analoqu olmayan tarixi əsərdə Qəbulə xanımın həyatı ilə əlaqədar ciddi bir yanlışlığa düzəliş verilməsi həm tariximiz, həm də ədəbiyyatımız üçün çox faydalıdır. (s.76)

Müəllif yazır: "Qəbulə kifayət qədər siyasi fiqurdur. Mübaliğəyə varmadan deyə bilərik ki, Azərbaycan tarixində onu yalnız Tomrislə müqayisə etmək olar". Əsəri təkrar mütaliə etdikcə Qəbulənin və onun Salyan naibi ərinin bir amala xidmət edən insanlar olduğunu düşünürəm. Baş vermiş hadisə birgə düşünülmüş siyasi bir addım ola bilər. Müəllifin hörmətlə yanaşdığım fikri belədir: "Qəbulə xanım Rus zabitlərini zərərsizləşdirməklə 4 ay əvvəl şəxsən Bakıya gedib, Rusiyaya sədaqət andı içmiş həyat yoldaşı ilə eyni düşüncəni paylaşmadığını da sərgiləmişdi. (Bəlkə bu bir siyasət idi, gözə kül üfürmək üçün idi?)

Kitaba ön söz yazmış Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə xanım Akimova Qəbuləni Azərbaycanda rus işğalına qarşı ilk direniş hərəkatının lideri adlandırır və haqlı olaraq Sovet dövründə onunla bağlı qaynaqların yox dərəcəsində olduğuna təəssüf edir. O yazır: "Azər Turanın tədqiqatı sayəsində öz tarixi haqqına qovuşan bu Qadın, bu gün öz ədalətini bərpa edən qalib və qürurlu Azərbaycana çox yaraşır". Misilsiz fikirlərdir! "Qəbulə xanım və I Pyotr" kitabının müəllifi, böyük Hüseyn Cavid yadigarı, mərhum Turan Cavidin mənəvi və layiqli oğlu Azər Turan aşkar etdiyi faktlarla 3 əsr bundan əvvəl Salyanda dünyaya gəlmiş Qəbulə xanıma əbədilik qazandırmış, onu ruhən Azərbaycana qovuşdurmuşdur. Haqq nazilər, amma üzülməz.

***2026***



***Tahirə HƏSƏNZADƏ,***
***tarix elmləri doktoru***